

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

28 iyul 2020-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

"COVID-19 üçün nanoterapevtik strategiyalar və gələcək perspektiv" səh. 2

BDU-da virtual elmi seminar keçirilib səh. 3

Hüquq fakültəsinin alimləri vəkilliyə qəbul olunub səh. 4

BDU alimləri "HORİZON 2020" üzrə beynəlxalq qrant müsabiqəsinin qalibi olublar səh. 4

Psixoloji Yardım Sektoru növbəti maarifləndirmə tədbiri keçirib səh. 4

İlk təcrübənin uğurlu nəticəsi səh. 4

Akademik Abdulla Qarayev - 110 səh. 5

Zaman bir olmaq zamanıdır səh. 6

BDU-nun müəllimləri təltif edildi səh. 6

Universitetdə bu il səkkiz yeni ixtisas açılıb səh. 7




BDU Elmi Şurasının onlayn iclası

Səh.2



BDU və "Clarivate Analytics" şirkəti elmi nəşrlərə dair onlayn görüş keçirib

Səh.2



Ağdam rayonunun işğalından 27 il ötür

Səh.2



BDU-nun tələbələri "Çin dili körpüsü" müsabiqəsinin qalibi olublar

Səh.8

Tələbələrimizin onlayn "müdafiə"si

Səh.8



# Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 51-ci ildönümünə həsr olunmuş onlayn tədbir keçirilib

***İyulun 9-da Bakı Dövlət Universiteti (BDU) və Yasamal Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 14 iyul - Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 51-ci ildönümünə həsr olunmuş onlayn tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev qonaqları salamlayaraq Ümummilli Lider Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycana siyasi rəhbər seçilməsindən sonra respublikamızın ictimai-siyasi, sosial-mədəni həyatının bütün sahələrində yeni inkişaf dövrünün başlandığını diqqətə çatdırıb. Respublikada aparılan ciddi islahatlar, həyata keçirilən silsilə tədbirlər nəticəsində ölkəmizin inkişaf sürətinə görə keçmiş SSRİ-də ən qabaqcıl respublikalardan birinə çevrildiyini bildirib.

E.Babayev qeyd edib ki, 1993-cü ildə xalqımızın Heydər Əliyevin hakimiyyətə qayıtmasını təkidlə tələb etməsi heç də təsadüfi deyildi. Tarixi qayıdış ilə Azərbaycan Respublikası yeni inkişaf mərhələsinə qədəm qoydu. Onun həyata keçirdiyi xilaskarlıq missiyası Azərbaycanı məhv olmaq təhlükəsindən qurtararaq gələcəyə inamla baxan güclü bir dövlətə çevirirdi. Bütün həyatını canından artıq sevdiyi xalqına, ölkəsinə həsr etmiş müdrik dövlət xadimi tariximizdə müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub.

Heydər Əliyev iti zəkası, müdrikliyi, uzaqgörənliyi ilə zəmanəmizin əbədiyaşar dahisinə çevrilib. Rektor, Ulu Öndər sayəsində əldə olunan nailiyyətlərdən danışaraq bu siyasi kursun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, respublikamızın həm də beynəlxalq aləmdəki mövqeyinin günü-gündən möhkəmləndiyini vurğulayıb.

(Ardı səh. 2)



BDU bir ailədir

Səh.4



Daha bir uğur

Səh.7



Təhsildəki nailiyyətlər

Səh.7

# Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 51-ci ildönümünə həsr olunmuş onlayn tədbir keçirilib

*(əvvəli 1-ci səhifədə)*

*Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov bildirib ki, Ulu Öndər Heydər Əliyev öz fəaliyyəti ilə təkcə böyük şəxsiyyət olduğunu nümayiş etdirməyib, həm də qətiyyət və siyasi iradəsi sayəsində mənsub olduğu xalqı və qurduğu dövləti dünya miqyasında tanıdıb.* Ümummilli Liderin hakimiyyətə yenidən qayıdışından dərhal sonra qanunvericilik sahəsində islahatlar aparıldığını, müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edildiyini, ilk parlament seçkilərinin keçirildiyini, gənclər siyasəti, mədəniyyət, idmanın inkişafı sahəsində əhəmiyyətli addımlar atıldığını diqqətə çatdıran E.Həsənov Ulu Öndərin Azərbaycan xalqını ağır vəziyyətdən çıxararaq uğura qovuşdurması, müstəqilliyin dönməzliyinin, əbədiliyinin təmin olunması ilə yadda qaldığını bildirib.

Milli Məclisin sədrinin birinci müavini Əli Hüseynli, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Milli Məclisin deputatı Musa Qasımlı, Milli Məclisin deputatı Ramin Məmmədov Ulu Öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından söhbət açdılar. Xalqımızın milli-mənəvi dəyərlərinin qarantı olan, bütün dövrlərdə onların qorunmasına çalışan görkəmli dövlət xadiminin mədəniyyətimizin, elmimizin və təhsilimizin hərtərəfli inkişafı üçün gördüyü işlər, konkret nəticələr vurğulandı.

*"Microsoft Teams" platforması üzərindən təşkil olunmuş tədbiri 150-dən çox iştirakçı dinləyib.*

# BDU Elmi Şurasının onlayn iclası keçirilib

***İyulun 14-də Bakı Dövlət Universitetində 2019/2020-ci tədris ilində Elmi Şuranın son iclası keçirilib.***




***İclası giriş sözü ilə açan rektor Elçin Babayev*** gündəlikdə olan məsələləri nəzərə çatdıraraq iyulun 12-də Ermənistan silahlı qüvvələrinin təxribata əl ataraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində artilleriya atəşindən istifadə edərək mövqelərimizi ələ keçirmək cəhdini Ermənistanın Azərbaycana qarşı yeritdiyi təcavüzkar və işğalçı siyasətinin nəticəsi kimi qiymətləndirib. Şəhid olan Azərbaycan silahlı qüvvələrinin 11 hərbiçisi və 1 mülki vətəndaşın vəfatını ürəkağrısı ilə qeyd edib. Həlak olanların əziz xatirəsi Elmi Şura üzvləri tərəfindən bir dəqiqəlik sükutla yad edilib.

***Daha sonra BDU-nun Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru İradə Əliyeva 2019/2020-ci tədris ilinin yaz semestrinin yay imtahan sessiyasının və Yekun Dövlət Attestasiyasının nəticələri haqqında məruzə ilə çıxış edib.*** O qeyd edib ki, məsafədən keçirilən imtahan sessiyasında bakalavriat səviyyəsində təhsil alan 15820 (14543-ü əyani, 1153-ü qiyabi, 124-ü əlavə təhsil, 534-ü SABAH qrupları olmaqla) tələbə ümumilikdə 4000-ə yaxın fənn üzrə imtahan verib, BDU-nun Qazax filialında isə imtahanlarda 1223 nəfər tələbə iştirak edib. Sessiya ərzində filialda ümumi olaraq 333 imtahan keçirilib. 4340 tələbə ÜOMG-yə uyğun qiymətləndirilib, 508 nəfər tələbə buraxılış işini müdafiə edib.

***Apellyasiya Komissiyasının sədri Elşad Qurbanov*** komissiyanın fəaliyyəti haqqında hesabat verib. Qeyd edib ki, tələbə müraciətlərinin operativ araşdırılması, imtahan nəticələrinin yenidən yoxlanılması və qiymətləndirilməsi məqsədilə Apellyasiya Komissiyası onlayn fəaliyyət göstərib. Sessiya müddətində komissiyanın qaynar xəttinə 153 müraciət daxil olub, onların əksəriyyəti tələbələrin xeyrinə həll edilib.

Rektor 2020-ci ilin ilk yarım ili ərzindəki Universitetin əldə etdiyi əsas elmi nailiyyətlər, Tələbə Nəzarət Qrupunun sessiya dövründə fəaliyyəti, karantin müddətində həyata keçirilən sosial tədbirlər, onlayn konfrans, ustad dərsləri, elmi seminarlar, karantin dövründə Mədəniyyət-yaradıcılıq Mərkəzi və Psixoloji Yardım Sektorunun fəaliyyəti, əməkdaşların virtual elmi tədbirlərdə iştirakı, doktorant və dissertantların attestasiyası, "Gənc İstedadlar" liseyinə qəbul haqqında ətraflı məlumat verib.

İclasda növbəti tədris ilində qarşıda duran vəzifələr, təhsilin keyfiyyətinin müasir çağırışlara uyğunlaşdırılması, tədrisin keyfiyyətinin artırılması məqsədilə "elektron universitet" modelinin tətbiqi, maddi-texniki bazanın təkmilləşdirilməsi, qarşıya çıxacaq problemlər, onların həlli yolları və görüləcək işlər müzakirə edilib.

E.Babayev onlayn dərs və imtahanların təşkil edilməsi və idarə olunmasında fəal iştirak edən struktur rəhbərlərinə, fakültə dekanlıqlarına, professor-müəllim heyətinə və texniki kollektivə rəhbərlik adından təşəkkür edib.

*Elmi Şura cari məsələlərin müzakirəsi ilə yekunlaşıb.*

# BDU və "Clarivate Analytics" şirkəti elmi nəşrlərə dair onlayn görüş keçirib

Bakı Dövlət Universiteti "Clarivate Analytics" şirkəti ilə birgə elmi nəşrlər və BDU-da çap olunan elmi jurnalların beynəlxalq nüfuz qazanması kimi aktual məsələlərə dair növbəti onlayn tədbir keçirib. Tədbir elmi fəaliyyətin inkişaf etdirilməsi, onun keyfiyyət səviyyəsinin yüksəldilməsi və ölkəmizin elmi nüfuzunun dünyada gücləndirilməsi məqsədini daşıyıb.

"Microsoft Teams" platforması üzərindən təşkil olunmuş görüşdə Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Clarivate Analytics şirkətinin MDB ölkələri və Rusiya üzrə direktoru Oleq Utkin, şirkətin Təhsil proqramları şöbəsinin müdiri Valentin Boqorov, Azərbaycan, Gürcüstan və Ukrayna üzrə rəsmi nümayəndəsi Sevinc Cəfərova, BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin müdiri Məmməd Rəcəbov, mərkəzin şöbə müdiri Mahir Pirquliyev iştirak ediblər.

Rektor Elçin Babayev "Clarivate Analytics" şirkəti ilə əməkdaşlığın daha da genişləndirilməsi yollarına diqqət çəkib, onun perspektivlərindən bəhs edib, qarşıda duran məsələlərdən danışıb.

Clarivate Analytics şirkətinin Təhsil proqramları şöbəsinin müdiri Valentin Boqorov pandemiya şəraitinə baxmayaraq 2020-ci ilin birinci yarısında BDU alimlərinin beynəlxalq indeksli jurnallarda çap olunan elmi məqalələrinin artan dinamikasını görüş iştirakçılarının nəzərinə çatdırıb. Görüşün yekununda müxtəlif elm sahələri üzrə ən nüfuzlu jurnalların axtarılıb tapılması, məqalələrin hazırlanması, nəşr prinsiplərinə dair təlimlərin bundan sonra da mütəmadi olaraq keçirilməsi qərara alınıb.

# Ağdam rayonunun işğalından 27 il ötür



Ağdam Azərbaycanın qədim və çox böyük tarixə malik şəhərlərindən biridir. Respublikamızın həyatında Ağdam rayonu həm iqtisadi, elmi potensialına, həm də insanların fədakarlığına görə həmişə çox mühüm rol oynamışdır.

1993-cü il iyulun 23-də Ermənistan Silahlı Qüvvələri Qarabağın mərkəzində yerləşən, 43 gün düşmənə sinə gərmiş Ağdamın böyük hissəsini işğal etmişdir. Yağı düşmən evlərə od vurmuş, mədəniyyət abidələrini dağıtmış, insanların əmlaklarını qarət etmiş, şəhəri tərk edə bilməyən dinc əhaliyə amansız divan tutmuşdur.

Ağdam şəhəri, onun qədim keçmişin şahidi olan çox sayda tarixi abidələri, mədəniyyət, memarlıq nümunələri, keçmiş SSRİ-də 1-ci, dünyada 2-ci olan Çörək muzeyi düşmən tərəfindən vəhşicəsinə dağıdılıb. Ərazisi 1 094 kv.km olan Ağdamın 846,8 kv.km-i, yəni 77,4%-i, bir şəhər və 80 kəndi ermənilərin əlinə keçdi, o vaxta qədər Ağdamın 1 şəhər, 124 kəndi vardı. Rayondakı 38 kolxoz-sovxozun 26-sı, 129 səhiyyə obyektinin 105-i, 108 məktəbin 74-ü, 271 mədəniyyət evinin 199-u, 24 tikinti təşkilatı, 67 idarə-müəssisə, 17 məscidin 14-ü işğal altında qalıb.

Ağdam düşmənlə döyüşlərdə 6 min şəhid verib, onlardan 16-sı Milli Qəhrəmandır. İşğal nəticəsində rayonun 160 min nəfər əhalisindən 143 min nəfəri öz ölkəsində məcburi köçkünə çevrilib.

Ermənilərin xalqımıza qarşı XIX əsrdən başlayan və XX əsrdən isə sürətlənən təcavüzkarlıq və soyqırım siyasəti hələ də davam edir. Ermənistan silahlı qüvvələrinin təxribata əl ataraq dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirmə istəyi Ermənistanın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli prosesinə mane olmaq cəhdidir.

# "COVID-19 üçün nanoterapevtik strategiyalar və gələcək perspektiv"

***İyulun 13-də Bakı Dövlət Universitetinin (BDU) tələbələri və gənc tədqiqatçıları "COVID-19 üçün nanoterapevtik strategiyalar və gələcək perspektiv" mövzusunda onlayn elmi seminar keçirib.***

Moderator, BDU-nun elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Məmməd Rəcəbov seminar iştirakçılarını salamlayıb professor Aziz Eftekharinin elmi fəaliyyəti haqqında məlumat verərək hazırkı çətin şəraitdə belə seminarların, ustad dərslərinin keçirilməsinin əhəmiyyətinə diqqət çəkib.

"COVID-19 üçün nanoterapevtik strategiyalar və gələcək perspektiv" mövzusunda təqdimatla çıxış edən İran İslam Respublikasının Marağa Universitetinin professoru Aziz Eftekhari COVID-19 infeksiyasının molekulyar diaqnostikası və müalicə üsulları, virusun quruluşu, mənşəyi, xəstəlik əlamətləri, koronavirusların replikasiyası və molekulyar divergensiyası, koronavirusların MERS və SARS növləri, eyni zamanda vaksinlərin hazırlanması, yeni epidemiya təhlükələrinin qarşısının alınmasında innovativ texnologiyaların tətbiqi, milli biotəhlükəsizlik çağırışları kimi məsələlərə aydınlıq gətirib.

Alimin koronavirus epidemiyasının müxtəlif ölkələrdə oxşar cəhətləri və ona qarşı təxirəsalınmaz müdaxilə tədbirlərinə həsr olunan çıxışı iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Virtual seminara qoşulan BDU-nun rektoru Elçin Babayev bu tip maarifləndirici seminarların keçirilmə əhəmiyyətindən söz açaraq Marağa Universitetinin professoru Aziz Eftekhariyə uğurlar arzulayıb. Qarşılıqlı əməkdaşlığın perspektivlərindən danışan rektor əlavə edib ki, universitetdə multidissiplinar tədqiqatlara üstünlük vermək, onları daim diqqətdə saxlamaq lazımdır.

"Microsoft Teams" platforması üzərindən təşkil olunmuş elmi seminar iştirakçıların böyük marağına səbəb olub.

Onlayn seminar sualların cavablandırılması ilə yekunlaşıb.

# BDU-da virtual elmi seminar keçirilib

***İyulun 6-da Bakı Dövlət Universitetində (BDU) Mexanika-riyaziyyat fakültəsinin təşkilatçılığı ilə onlayn elmi seminar keçirilib.***

Seminarda İdarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrasının müdiri, professor Hamlet Quliyev "Hiperbolik tənlik üçün sərhəd məsələsində iki aralıq müşahidə anları olan başlanğıc idarəetmə məsələsi" adlı məruzə ilə çıxış edib. Məruzədə ikitərtibli xətti hiperbolik tənlik üçün qarışıq məsələdə iki aralıq müşahidə anları olan kvadratik funksionallı başlanğıc idarəetmə məsələsindən danışılıb. Funksionalın infimumunun sıfıra bərabər olduğu hal, qoşma məsələnin daxil olunması və variasional bərabərsizlik şəklində optimallıq üçün zəruri və kafi şərtlərin alınması haqqında geniş məlumat verilib.



Videobağlantıya qoşulan rektor Elçin Babayev iştirakçıları salamlayaraq bildirib ki, koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar davamlı olaraq Bakı Dövlət Universitetində konfranslar, seminarlar, ustad dərsləri, müzakirələr, iclaslar onlayn formada keçirilir. Hazırkı dövrümüz elm və texnikanın tərəqqisi əsasında bəşəriyyətin maddi və mənəvi həyatında baş verən mühüm dəyişikliklərlə əlamətdardır. Elm və texnika cəmiyyətin həyatında getdikcə daha böyük rol oynayır, onun inkişafı üçün hədsiz imkanlar açılır.

***Mexanika-riyaziyyat fakültəsinin əldə etdiyi elmi uğurlardan danışan E.Babayev fakültədə kadr potensialının daha da yaxşılaşdırılması yönündə görülən işlərə, fakültənin elmin tərəqqisinə, ictimai həyatın bütün istiqamətlərinə verdiyi töhfələrə və qazandığı nailiyyətlərə diqqət çəkib.*** Rektor riyaziyyat sahəsində ikili diplom proqramları istiqamətində aparılan işlərin sürətləndirilməsi ilə bağlı öz tövsiyələrini verib.

Mexanika-riyaziyyat fakültəsinin dekanı, professor Nizaməddin İsgəndərov kompüter elmlərinin sürətli inkişafının riyaziyyatın yeni tətbiq sahələrini əhəmiyyətli dərəcədə artıraraq təbiət və cəmiyyətin müxtəlif sahələrində yeni riyazi üsulların yaranmasına imkan yaratdığını nəzərə çatdırıb. Fakültənin elmi-pedaqoji kadrların hazırlanmasına verdiyi töhfələrdən danışan N.İsgəndərov sonda fakültənin 2020-ci ilin ilk yarım ili ərzindəki elmi və pedaqoji fəaliyyəti haqqında ümumi hesabatı təqdim edib.

Elmi seminarın moderatoru, BDU-nun elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Məmməd Rəcəbov keçirilən onlayn elmi seminarların, ustad dərslərinin elm və tədqiqat işlərinin onlayn formada davam etməsinə böyük töhfələr verdiyini bildirib.

"Microsoft Teams" platforması üzərindən təşkil olunmuş elmi seminar sualların cavablandırılması ilə yekunlaşıb.



## UNİVERSİTET XƏBƏRLƏRİ

# Fakültələrdə Elmi hesabat verilib

***Mexanika-riyaziyyat fakültəsi***

Mexanika-riyaziyyat fakültəsinin cari ilin ilk yarımili üçün elmi hesabatı dinlənilib. "Microsoft Teams" platforması üzərindən təşkil olunmuş elmi hesabatda BDU-nun rektoru Elçin Babayev, Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Məmməd Rəcəbov və fakültənin professor-müəllim heyəti iştirak edib. Hesabatda Mexanika-riyaziyyat fakültəsinin dekanı, professor Nizaməddin İsgəndərov fakültənin 2020-ci ilin ilk yarım ili ərzindəki elmi və pedaqoji fəaliyyəti haqqında ümumi hesabatı və mühüm statistik göstəriciləri təqdim edib.

Sonda Mexanika-riyaziyyat fakültəsinin əldə etdiyi elmi uğurlara toxunan rektor Elçin Babayev fakültədə kadr potensialının daha da yaxşılaşdırılması istiqamətində görülən işlərə, fakültənin elmin tərəqqisinə, qazanılan nailiyyətlərə diqqət çəkib və riyaziyyat sahəsində ikili diplom proqramları istiqamətində aparılan işlərin sürətləndirilməsi haqqında öz tövsiyələrini verib.

***

***Fizika fakültəsi***

Fizika fakültəsində 2020-ci ilin ilk yarımili üçün elmi hesabat verilib. 15 iyul 2020-ci il tarixində Bakı Dövlət Universitetinin Fizika fakültəsinin cari ilin ilk yarımili üçün elmi hesabatı dinlənilib. BDU-nun Elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov, Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Məmməd Rəcəbov, Fizika fakültəsinin dekanı Məhəmmədəli Ramazanov, dekan müavinləri və professor-müəllim heyəti iştirak edib.

Fizika fakültəsinin dekanı, professor Məhəmmədəli Ramazanov fakültənin 2020-ci ilin ilk yarım ili ərzindəki elmi fəaliyyəti haqqında ümumi hesabatı və mühüm statistik göstəriciləri iştirakçılara təqdim edib. Qeyd olunub ki, fakültə alimləri pandemiya şəraitində nüfuzlu jurnallarda məqalələr dərc etdiriblər.

# Həsən bəy Zərdabi və Milli Mətbuat Günü

***Tarix fakültəsinin tələbəsi olanda Zərdabini bizə tədris etmirdilər. Bizə elə gəlirdi ki, Zərdabi qəzet nəşr etdiyi üçün onu jurnalistika və filologiya fakültəsinin tələbələri öyrənməlidirlər. İllər ötdü. Universitetdə Tarixşünaslıq fənninin tədrisinə başladım. Çətinliklə də olsa, fənnin proqramında dəyişiklik edə bildim. Sovet tarixşünaslığından dörd mühazirəni kəsib Azərbaycan tarixşünaslığına verdik. İlk mühazirə Abbasqulu ağa Bakıxanov və onun "Gülüstani-İrəm" əsərinə həsr olundu. Hiss elədim ki, tələbələr mühazirədən razı qaldılar. Ürəyimdə mərhum filosof, professor Ənvər Əhmədova dualar etdim. İki il onun yanında olmasaydım və əsərlərini oxumasaydım, Bakıxanovu bu dərəcədə tanıya bilməzdim. Professor Ənvər Əhmədov sovet dönəmində Bakıxanovu bizə dürüst və sağlam düşüncə ilə təqdim edən ilk tədqiqatçımızdır.***

İkinci mühazirəni Azərbaycan maarifçi-demokratların nümayəndəsi Axundzadəyə həsr etdim. Mühazirənin ən maraqlı yeri XVIII əsr fransız maarifçiləri ilə Mirzə Fətəlinin müqayisəsi oldu. Dərs ilinin birinci semestrini Azərbaycan tarixşünaslığına həsr olunan iki mühazirə ilə başa vurdum.

Dərs ilinin ikinci semestrinin başlanmasına iki ay qalırdı. Üçüncü mühazirənin kimə həsr olunması ilə bağlı tərəddüdlərim var idi. XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərinin görkəmli tədqiqatçısı, professor Xeyrulla Məmmədovdan məsləhət istədim. Çox sərt şəkildə: "Azərbaycan tarixində və ədəbiyyatında Həsən bəydən uca zirvə yoxdur. Biz ədəbiyyatçıları məcbur ediblər ki, onun bütün fəaliyyətini "Əkinçi" qəzeti ilə məhdudlaşdıraq. Siz tarixçilər də Zərdabidən qaçırsınız. Əslində Həsən bəy ədəbiyyatçılardan daha çox tarixçilərin tədqiqat mövzusudur." Beləliklə, Həsən bəy Zərdabinin tədqiqinə başladım. Həsən bəyi öyrəndikcə onunla fəxr edir, digər tərəfdən təəssüf edirdim ki, bu böyük dahi diqqətdən kənarda qalıb.



Həsən bəyi öyrəndikcə tələbələrimə aşağıdakıları çatdırırdım:

Azərbaycanda milli azadlıq hərəkatının ilk qaranquşu Həsən bəy olub.

Böyük rus tarixçisi Solovyov Moskva Dövlət Universitetinin rektoru olanda Həsən bəy də həmin Ali məktəbin tələbəsi idi. Tarixdə çox az tələbəyə nəsib olur ki, rektor tələbəsindən nəyi isə öyrənsin. Solovyov Şərqlə, o cümlədən, İslamla bağlı bilmək istədiklərini Həsən bəydən soruşurdu. Üstəlik böyük rus tarixçisinin qızı da Həsən bəyə vurulmuşdu. İllər ötəcək, Həsən bəy nəcabətli Hənifə xanımla ailə quracaq, günlərin birində Hənifə xanım soruşacaq, bəy, niyə rektorun qızı ilə evlənmədin? Bəyin cavabı təqribən belə olacaq: Mən xristian qızı ilə evlənsəydim xalqım məni başa düşməzdi. Xalqıma xidmət etmək üçün Vətənimdə olmalıydım.

Həsən bəy dindar idi. Sovet dönəminin materialist ideologiyası Həsən bəyi heç vaxt təbliğ etməzdi və etmədi də. Amma Zərdabidən imtina da edə bilmədi. Ona görə bu dahi şəxsiyyətin fəaliyyətini 56 sayı işıq üzü görən "Əkinçi" ilə məhdudlaşdırdı.

Həsən bəy nadir şəxsiyyətlərdəndir ki, heç bir çar məmurunun qarşısında əyilmədi, kimdən nə isə ummadı. Tiflis torpaq palatasının işçisi, Bakı quberniya idarəsində və Qubada dairə məhkəməsinin katibi olanda şəxsiyyətini aşağılamamaq üçün işdən çıxmaq haqqında ərizəyə üstünlük verdi. Qubada gecə yarısı bir namərdin atdığı güllə mərdlik etdi. Güllə Həsən bəyin başından bir az yuxarı divara dəydi.

***Həsən bəy Azərbaycanda milli şüurun və vətənpərvərlik hissinin təbliğində əvəzsiz xidməti olan şəxsiyyətdir. Qoca Axundzadə rus-tatar məktəbi deyəndə, gənc Həsən bəy türk-tatar məktəbi istəyirdi. Həsən bəy bütün ömrü boyu xalqının maariflənməsi üçün mücadilə edib.***

Həsən bəy müsəlman şagirdləri üçün yardım cəmiyyəti təsis etdi. Azərbaycanın qəzalarını dolaşaraq şagirdlərin təhsil alması üçün pul topladı. Heç kimin edə bilməyəcəyini etdi. Mənzilində pansionat açdı, azərbaycanlı uşaqlara bu pansionatda dərs keçir, onların dəftər-qələmini alır, hətta geyiminə də köməklik göstərirdi. Fransalı jurnalistin yazdığı kimi, gözümlə gördüyümü yazsam belə, mənə inanmazlar, çünki Həsən bəyin və həyat yoldaşının elədikləri heç bir avropalı etmir və edə bilmir.

Həsən bəy böyük şəxsiyyət olub. XIX-XX əsrin əvvəllərində milləti üçün etdiklərini ortaya qoyanda onunla müqayisə oluna biləcək kimsə yoxdur.

"Əkinçi" haqqında kifayət qədər yazılıb. Sovet dönəmində həm qəzetdən, həm də müəllifdən xəsisliklə yazırdılar. Hələ onu demirəm ki, çoxları düzgün yazılmayıb.

Əkinçi 1875-ci il iyulun 22-də həyata vəsiqə aldı, 1877-ci il sentyabrın 29-da isə nəşri dayandırıldı. Həsən bəy qəzetin nəşrinə başlamaq üçün nə qədər qapılar döydü, çar məmurlarının və erməni düşmənçiliyinin müqaviməti ilə qarşılaşdı. Amma əyilmədi, yolundan dönmədi. Qəzetin cəmi 56 sayı işıq üzü gördü. Həsən bəy qəzet bağlananda məyus olsa da, yay oxundan çıxmışdı. Cənubi Qafqazda sayca hamıdan çox olan azərbaycanlıların imzası da "Əkinçi"nin timsalında göründü. Həsən bəy Rus-Osmanlı müharibəsinə münasibətdə rus təəbsi sayılsa da, Osmanlı tərəfini müdafiə etdi.

Ermənilərin torpaq iddialarına qarşı ilk etirazlar "Əkinçi"də yer alıb. Bu kəskin yazıların müəllifi Həsən bəy Zərdabi idi.

"Əkinçi"ni bağlamaq üçün ermənilər Bakıya yeni təyin olunan qubernatordan məharətlə istifadə etdilər. Erməni millətçi dairələri Həsən bəyi Bakıdan uzaqlaşdırmaq üçün hər cür sövdələşməyə getdilər. Həsən bəy Bakı gimnaziya müəllimliyindən istefa verməyə məcbur edildi, amma təklif olunan Stavropola getmədi. Düz 16 il doğulduğu Zərdabda yaşadı.

Həsən bəy 1907-ci noyabrın 28-də 70 yaşında vəfat etdi. Bakı öz tarixində ilk dəfə Həsən bəyi son mənzilə yola salmaq üçün insan selinin şahidi oldu. Azərbaycanda bütün xalqın sevgisini qazanan ilk şəxs Həsən bəy Zərdabi olmuşdur.

Bir tərəfdən dünyanı bürüyən COVID -19, bir tərəfdən də Tovuz istiqamətində düşmənlə ağır döyüşlərdə verdiyimiz şəhidlər 22 iyulla bağlı ürək qızdıran yazı yazmağıma imkan vermədi.

Əslində, Həsən bəy Azərbaycan uğrunda şəhid olanların birincisidir. Onun arzuladığı müstəqil dövlət 23 ay şərəflə yaşadı, amma yağı düşmən güclü çıxdı. 70 illik sovet dönəmində meydan "Pravda" və digərlərinin idi, "Əkinçi"yə yer yox idi.

Yenidən müstəqilliyə qovuşmağımız bizə Milli Mətbuat Gününü bəxş etdi. Yəni Həsən bəyi bizə qaytardı. Qayıtdığın gün mübarək olsun, Ustadımız, Həsən bəy Zərdabi.

***Anar İsgəndərov,***
***Milli Məclisin deputatı,***
***Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri,***
***tarix elmləri doktoru,***
***professor***

# BDU bir ailədir

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibətilə Bakı Dövlət Universitetinin elan etdiyi esse müsabiqəsinin mükafatını, düzü, çoxdan gözləyirdim. Bilənlər bilir, yaradıcı adamlar üçün belə müsabiqələr həm də sınaq xarakteri daşıyır. Odur ki, elə bəri başdan universitet rəhbərliyinə, rektora minnətdarlığımı bildirirəm. Elə bu minnətdarlıq fonunda da qeydlərimi davam etdirirəm: müsabiqədə ancaq birinci, ikinci və üçüncü yerlərə layiq görülənlərin mükafatlandırılacağı ilk günlərdən məlum idi. Amma bir neçə ay əvvəl nəticələr elan olunanda qəribə sürprizlə qarşılaşdım. Həvəsləndirici mükafata layiq görüldüyümə görə, bir az məyus olsam da, qeyd etməyi özümə borc bildiyim və yazının mahiyyətini daşıyan məqam məni dəfələrlə artıq sevindirdi. Rektorumuz ilk üçlükdə qərarlaşanlardan savayı, digər iştirakçılara da böyük bir jest göstərərək, hə-



vəsləndirici mükafatlar da ayırmışdı. Halbuki dediyim kimi, bu, hər birimizdən ötrü gözlənilməz idi. Bir xeyli tələbə, o cümlədən fakültə yoldaşlarımdan ikisi - magistrant Nigar Abbasova ilə bakalavr pilləsinin birinci kursunda təhsil alan Əsgər İsmayılov ali məktəb rəhbərliyinin sözügedən humanist təşəbbüsünə görə sevinənlər sırasında oldular.

Məlum olduğu kimi, koronavirus pandemiyası BDU ilə tələbələr arasındakı əyani əlaqələrə müəyyən qədər mane olub. "Gözəgörünməz düşmən" iradəmizə zidd şəkildə bizi ali təhsil müəssisəmizdən ayrı salıb. Belə bir çətin şəraitdə də rektorumuz Elçin müəllimin qayğısını hiss etmək, onun diqqətindən kənarda qalmamaq çox sevindiricidir. Deməli, universitetdaxili münasibətlər formallıqdan çox uzaqdır.

Dörd il qoynuna sığındığım doğma universitetdə təxminən iki ay sonra magistr təhsilinə başlayacağam. Universitetimizin bu - növbəti humanist addımından, tələbələrin ruh yüksəkliyini və rifahını daim diqqətdə saxladığını göstərən jestindən sonra çoxdandır, bələd olduğum bir həqiqətin yenə təsdiqini tapdım: BDU bir ailədir. Əlbəttə, mən jurnalist kimi yetişdiyim bu ailədən mümkün qədər gec ayrılmaq istəyirəm.

*Kənan Novruzov,*
*Jurnalistika fakültəsinin magistrantı*

# Hüquq fakültəsinin alimləri vəkilliyə qəbul olunub







***Hüquq fakültəsinin dekanı, professor Əmir Əliyev, "Kriminalistika və Məhkəmə ekspertizası" kafedrasının müdiri, professor Kamil Səlimov və Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, professor Şəhla Səmədova vəkilliyə qəbul olunub.***

Bu barədə Vəkillər Kollegiyası Rəyasət Heyətinin iclasında məlumat verilib.

İclasda vəkilliyə qəbulla bağlı ixtisas imtahanlarını və Ədliyyə Akademiyasında icbari təlimi uğurla başa vurmuş vəkilliyə namizədlərin onlayn andiçmə mərasimi keçirilib, hazırda dövlət qulluğunda olan bəzi vəkilliyə namizədlərin vəkillik fəaliyyətinə başlamalarına möhlət verilməsinə dair müraciətlərə baxılıb və bir sıra vəkillərin mükafatlandırılması məsələlərinə dair müsbət qərarlar qəbul olunub.

***Hüquq fakültəsinin alimlərini təbrik edir, uğurlar arzulayırıq!***

# BDU alimləri "HORİZON 2020" üzrə beynəlxalq qrant müsabiqəsinin qalibi olublar

***Mexanika-riyaziyyat fakültəsi və Tətbiqi Riyaziyyat Elmi-tədqiqat İnstitutu əməkdaşlarının tərəfdaş olduğu və "HORİZON 2020" beynəlxalq qrant proqramına xarici həmkarlarla birgə təqdim edilmiş SOMPATY - Spectral Optimization: From Mathematics to Physics and Advanced Technology (Spektral Optimallaşdırma: Riyaziyyatdan fizika və yüksək texnologiyaya) adlı layihə qalib elan olunub.***

Almaniyanın İlmenau Texniki Universitetinin (Technische Universitaet İlmenau) koordinatorluğu ilə yerinə yetiriləcək layihə Avropa Komissiyası tərəfindən maliyyələşdirilir. Proqramda Al-




maniya, Çex Respublikası və Ukrayna qurumları iştirakçı, Azərbaycan, Belarus, Qazaxıstan və Özbəkistan qurumları isə tərəfdaş qismində iştirak edir. Məqsəd iştirakçı və tərəfdaş ölkələrin ali məktəbləri və elmi - tədqiqat mərkəzləri arasında əməkdaşlıq mübadiləsi, müştərək elmi tədqiqatların aparılması və təlimlərin təşkil olunmasıdır.

Qrant layihəsində Azərbaycanı BDU-nun Tətbiqi-Riyaziyyat Elmi-tədqiqat İnstitutunun direktoru, akademik Fikrət Əliyev (layihənin Azərbaycan üzrə koordinatoru), Mexanika-riyaziyyat fakültəsinin dekanı, professor Nizaməddin İsgəndərov, Tətbiqi Riyaziyyat Elmi-tədqiqat İnstitutunun elmi katibi, dosent Nərgiz Səfərova, Mexanika-riyaziyyat fakültəsinin Hesablama riyaziyyatı kafedrasının dosenti Elvin Əzizbəyov, Tətbiqi Riyaziyyat Elmi-tədqiqat İnstitutunun aparıcı elmi işçisi Nazilə Hacıyeva, Tətbiqi Riyaziyyat Elmi-tədqiqat İnstitutunun aparıcı elmi işçisi, dosent Qəmər Məmmədova və Mexanika-riyaziyyat fakültəsinin İdarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrasının əməkdaşı Aysel Ramazanova təmsil edirlər.

Layihə 1 aprel 2020-ci il tarixindən 31 mart 2024-cü ilədək davam edəcəkdir. Layihənin büdcəsi 883200 avro, maliyyələşmə sxemi isə "Marie Sklodowska-Curie Research and Innovation Staff Exchange"dir (RISE).

# Psixoloji Yardım Sektoru növbəti maarifləndirmə tədbiri keçirib



***Dünyada sürətlə yayılan Koronavirus (COVID-19) pandemiyası səbəbilə insanları virusa yoluxmadan qorumaq və pandemiyanın qarşısını almaq üçün davamlı yeni qaydalar tətbiq edilir.*** Dünya əhalisinin virusdan qorunması üçün Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) o cümlədən dövlətlər insanları evdə qalmağa çağırır. Eyni zamanda karantin rejiminin tətbiqi psixoloji gərginliyə səbəb olur. Bu səbəblə Bakı Dövlət Universitetinin (BDU) Psixoloji Yardım Sektorunun (PYS) əməkdaşları koronavirus pandemiyası dövründə stres, həyəcan, təşviş, eyni zamanda stresin immun sisteminə təsiri mövzusunda "İnstagram" hesabı üzərindən canlı yayım edib.

***PYS-nin psixoloq-məsləhətçiləri Turqay Əlisalamzadə və Natavan Həsənzadə izləyiciləri salamlayıb, BDU-da iyunun 8-dən start götürən yaz semestrinin imtahan sessiyasında tələbələrə müvəffəqiyyətlər arzulayıblar.*** Pandemiya zamanı narahatlıq və stresin artması, yaranmış psixoloji gərginliklə mübarizə metodlarından danışan mütəxəssislər pandemiya dövründə stresin idarə olunması ilə bağlı izləyicilərə maarifləndirici məlumat verib, onları tələb olunan qaydalara riayət etməyə çağırıblar. Qeyd olunub ki, psixoloji əhval-ruhiyyə yüksək tutulmalı, bütün lazımi tədbirlərə - istər qidalanma, istərsə də gigiyena qaydalarına riayət edilməlidir. Sosial ünsiyyətin vacibliyini vurğulayan psixoloq-məsləhətçi Natavan Həsənzadə bildirib ki, informasiya texnologiyaları vasitəsilə ünsiyyəti davam etdirməli, sosial izolyasiya tədbirlərinin gətirdiyi narahatlıq, depressiya kimi təsirlərdən özünümüdafiə tədbirləri görülməlidir.

Həmçinin pandemiya zamanı əməl edilməli olan ən vacib psixoloji məqamlar - psixoloji rahatlığın təmin edilməsi məqsədilə gündəlik rejim tətbiqi, yuxu və qida rejiminə diqqət edilməsi, ailə üzvləri ilə səmərəli vaxtın təşkili, soyuqqanlı olmağın və təşvişdən uzaq durmağın vacibliyi vurğulanıb. Daha sonra izləyicilərə emosional rahatlığın qorunması üçün rəsmi xəbərlərdən kənar yayılan informasiyalara inanmamaları, fiziki aktivliyin təmin olunması, onlayn işləyənlərin iş rejiminə əməl etmələri, zərərli vərdişlərdən imtina tövsiyə edilib.

Sonda izləyicilərin sualları cavablandırılıb.

# "Xarici dil kimi urdu dilini öyrənməyin texnikaları" mövzusunda seminar keçirilib



Şərqşünaslıq fakültəsinin İran Filologiyası kafedrasının müəllimi Eldost İbrahimov "Xarici dil kimi urdu dilini öyrənməyin texnikaları" mövzusunda təqdimatla çıxış edib. Natiq hazırkı dövrdə sərhədlərin önəm daşımadığını, fərdi dil və ünsiyyət bacarıqlarının artıq dünyanın böyüklüyünü təyin etdiyini, bu səbəbdən xarici dil öyrənməyi fərdi və ictimai inkişafın mühüm amili kimi qiymətləndirib.

Çıxışda xarici dil öyrənmənin üsul və vasitələri, induktiv yanaşma, kommunikativ dil tədrisi, verbal faktorlar, elektron resurslar və internetin yaratdığı imkanlardan istifadə, oxuyub-anlama, danışma, dinləyib-yazmaq metodları, lüğətdən istifadə ilə bağlı ətraflı məlumat verilib.

"Microsoft Teams" platforması üzərindən təşkil olunan seminar iştirakçıların marağına səbəb olub.

# Akademik Abdulla Qarayev - 110

**İyulun 14-də Bakı Dövlət Universitetində (BDU) görkəmli alim və ictimai xadim, Azərbaycanda fiziologiya elminin banisi, 1944-1950-ci illərdə BDU-nun rektoru olmuş əməkdar elm xadimi, akademik Abdulla Qarayevin anadan olmasının 110 illiyinə həsr olunmuş onlayn dəyirmi masa keçirilib.**

***Tədbiri giriş sözü ilə açan moderator, BDU-nun Elmi fəaliyyətin təşkili və innovasiyalar Mərkəzinin direktoru Məmməd Rəcəbov dəyirmi masa iştirakçılarını salamlayaraq, Azərbaycanın ilk fizioloq alimi Abdulla Qarayevin həyat və yaradıcılığı haqqında məlumat verib. Bildirib ki, Azərbaycan elminə böyük töhfələr vermiş Abdulla Qarayev dövlətçilik, elm və təhsil tariximizdə silinməz izlər qoyub.***

BDU-nun rektoru Elçin Babayev qonaqları salamlayaraq akademik Abdulla Qarayevin çoxşaxəli elmi və ictimai fəaliyyəti barəsində ətraflı məlumat verib. Bildirib ki, 1938-ci ildə təməli qoyulan eksperimental fiziologiya laboratoriyasının ilk təşkilatçılarından biri tibb elmləri doktoru, professor, Azərbaycan SSR-i Elmlər Akademiyasının akademiki, Əməkdar elm xadimi Abdulla Qarayev bütün həyatını fiziologiya, biologiya və tibb elmlərinin müxtəlif nəzəri və təcrübi sahələrinin inkişafı işinə həsr edib.

Akademikin BDU-dakı fəaliyyətindən söz açan E.Babayev bildirib ki, 1941-ci ildən müntəzəm olaraq BDU-da çalışmağa başlayan A.Qarayev 1941-1943-cü illərdə Universitetin Biologiya fakültəsinin dekanı, 1943-1944-cü illərdə elmi işlər üzrə prorektoru və 1944-1950-ci illərdə isə rektoru vəzifələrində çalışıb. Alimin qətiyyətli fəaliyyəti nəticəsində 1950-ci illərin ortalarında Universitet ölkədə ən güclü elmi mərkəzə çevrilə bilib. A.Qarayev tabeliyində çalışan əməkdaşların qayğısına qalıb, onların problemlərinin həlli üçün əlindən gələn köməyi əsirgəməyib. Bu səbəbdən onun əziz xatirəsi həmişə uca tutulur və böyük ehtiramla yad edilir.

*AMEA-nın vitse-prezidenti, AMEA-nın həqiqi üzvü, AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru İradə Hüseynova "Akademik Abdulla Qarayev elmin təşkilatçısı kimi" mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, akademik A.Qarayev bütün həyatını fiziologiya elminin inkişafına həsr edərək tükənməz qüvvəsi və bacarığı sayəsində adını Azərbaycanın elm tarixinə milli fiziologiya məktəbinin yaradıcısı kimi qızıl hərflərlə yazdırıb.* Natiq qeyd edib ki, respublikada insan və heyvan fiziologiyası sahəsində fundamental tədqiqatlar aparan ilk akademik qurum məhz onun təşəbbüsü ilə Az.SSR EA-nın Zoologiya İnstitutunda yaradılan Fiziologiya şöbəsi olub. Sonradan Rəyasət Heyəti yanında sektor statusu alan bu qurumun əsasında 1968-ci ildə Fiziologiya İnstitutu təsis olunub. Qeyd edilib ki, bugün akademik Abdulla Qarayevin adını daşıyan Fiziologiya İnstitutu onun rəhbərliyi dövründə irəli sürdüyü ideyaları inkişaf etdirərək respublikada aparılan fizioloji tədqiqatların koordinasiyasını həyata keçirir, gənc kadrların yetişdirilməsinə öz töhfəsini verir.



Daha sonra AMEA-nın A.İ.Qarayev adına Fiziologiya İnstitutunun direktoru, professor Ulduz Həşimova "Abdulla Qarayev: görkəmli alim və elm təşkilatçısı", AMEA-nın müxbir üzvü, Azərbaycan Tibb Universitetinin A.İ.Qarayev adına Normal fiziologiya kafedrasının müdiri, professor Arif Məmmədov "Abdulla Qarayevin elmi-pedaqoji fəaliyyəti haqqında", AMEA-nın müxbir üzvü, AMEA-nın A.İ.Qarayev adına Fiziologiya İnstitutunun baş elmi işçisi Rafiq Qasımov "Abdulla Qarayev haqqında xatirələr", BDU-nun İnsan və heyvan fiziologiyası kafedrasının müdiri, dosent Validə Mədətova və kafedranın dosenti Rumangiz Babayeva "Azərbaycanda fiziologiyanın banisi - Abdulla Qarayev", doktorant Həsənova Könül "Abdulla Qarayev - əvəzolunmaz alim və müəllim" mövzusunda çıxış ediblər.

Çıxışlarda akademik Abdulla Qarayevin keçdiyi mənalı ömür yolu, insan kimi humanist xüsusiyyətləri, milli fiziologiya məktəbinin yaradıcısı kimi Azərbaycan elmi istiqamətində gördüyü işlər, dünyada analoqu olmayan Naftalan neftinin, Azərbaycanın şəfaverici sularının (Badamlı, İstisu, Turşsu və s.) və dərman bitkilərindən hazırlanan preparatların insan orqanizminə müalicəvi təsirinin öyrənilməsi istiqamətində apardığı elmi tədqiqatlar, Azərbaycan fizioloqları məktəbinin formalaşdırılması istiqamətində atdığı addımlar, Azərbaycan dilində dərslikləri nəşr etdirməsi, pedaqoji və ictimai fəaliyyəti haqqında ətraflı məlumat verilib.

***Ailə üzvləri adından akademik Abdulla Qarayevin nəvəsi, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Tibbi-bioloji elmlər kafedrasının dosenti, biologiya üzrə fəlsəfə doktoru Vəfa Adıgözəlova çıxış edərək BDU rəhbərliyinə, AMEA-nın Biologiya və Tibb Elmləri bölməsinə və tədbirdə iştirak edən bütün qonaqlara minnətdarlığını çatdırıb.***

Onlayn dəyirmi masa Fiziologiya İnstitutunun Abdulla Qarayev haqqında hazırladığı sənədli filmin nümayişi ilə başa çatıb.

# İlk təcrübənin uğurlu nəticəsi

## BDU-da 2019/2020-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası yekunlaşıb

***COVID-19 pandemiyası səbəbilə bütün dünyada, eləcə də ölkəmizdə təhsildə, tədrisin təşkilində kəskin yeniliklər baş verdi. İnnovasiyaların dinamik surəti tədris müəssisələrini yeni texnologiyaların təlim prosesinə tətbiqi ilə bağlı qətiyyətli addımlar atmağa vadar etdi. Azərbaycan təhsili tarixində ilk dəfə baş tutan onlayn təlim-tədris prosesi və imtahan sessiyasının reallaşmasına Bakı Dövlət Universitetinin (BDU) professor-müəllim kollektivi, texniki heyəti, hətta tələbələri də böyük təssübkeşlik hissi ilə öz töhfəsini verdi. Nəticədə tədrisin məsafədən - onlayn təşkilinin önəmli cəhətləri, müasir təlim texnologiyaları, tələbələrdə onlayn tədrislə bağlı bacarıq və vərdişlərin formalaşdırılması, interaktiv metodların tədris prosesinə tətbiq edilməsi kimi yeni təcrübələr qazanılmış oldu.***




BDU-da 2019/2020-ci tədris ilinin yaz semestrinin imtahan sessiyası uğurla başa çatdı. İmtahan həyəcanı, yuxusuz gecələr artıq geridə qaldı.

***BDU-da bakalavriat səviyyəsinin I-III kurs tələbələri, I kurs magistrantlar, alt qruplarda, həmçinin ləğv olunmuş fənlər üzrə yaradılmış əlavə qruplarda təhsil alan tələbələr və magistrantlar yaz imtahan sessiyası müddətində onlayn qaydada şifahi formada imtahan verdilər.

***Yaz semestrinin imtahan sessiyasının keçirilməsi və biliyin qiymətləndirilməsi ilə bağlı universitet rəhbərliyi tələbələrin xeyrinə qaydalar müəyyənləşdirdi. Hər bir fənn üzrə tərtib olunmuş imtahan sualları azaldılaraq sadələşdirildi, tələbələrin imtahana giriş balı 50 (əlli) bal müəyyən edildi.

***Əvvəlcədən tərtib olunmuş cədvələ uyğun olaraq imtahan prosesi ikinövbəli formada təşkil olundu.

***Akademik heyət tərəfindən "Microsoft Teams" platforması üzərindən keçirilən onlayn dərslər və BDU-nun Youtube kanalı vasitəsilə təqdim olunan videodərslər də tələbələrimizin müvafiq fənlər üzrə zəruri bilikləri əldə etməklə imtahanları uğurla verməsinə zəmin yaratdı.

***Tədris prosesinin təşkili, dərslərin keçirilməsinə nəzarət, texniki çətinliklərin aradan qaldırılması, müəllim və tələbələrin onlayn platformadan düzgün istifadə etməsinə kömək məqsədilə məsafədən fəaliyyət göstərən 20 əməkdaşdan ibarət işçi qrupu gücləndirilmiş iş rejimində fəaliyyət göstərdi.

***Məsafədən keçirilən imtahan sessiyasında bakalavriat səviyyəsində təhsil alan 15820 (14543-ü əyani, 1153-ü qiyabi, 124-ü əlavə təhsil, 534-ü SABAH qrupları olmaqla) tələbə ümumilikdə 4000-ə yaxın fənn üzrə imtahan verdi.

***4340 tələbə ÜOMG-yə uyğun qiymətləndirilib, 508 nəfər tələbə buraxılış işini müdafiə edib.

***Magistratura səviyyəsində I kursda 238 ixtisaslaşmada 759 magistrant 962 fənn üzrə keçirilən imtahanlarda iştirak etdi. II kursda təhsil alan 783 magistrant isə magistrlik dissertasiya işini müdafiə edərək məzun oldu. Bunlardan 469 nəfəri universiteti fərqlənmə diplomu ilə bitirdi.

***BDU-nun Qazax filialında isə imtahanlarda 1223 nəfər tələbə iştirak edib. Sessiya ərzində filialda ümumi olaraq 333 imtahan keçirildi.

***Şifahi formada keçirilən bütün imtahan nəticələri tələbələrə imtahanın gedişində bildirildi.

***Bakalavriat səviyyəsində yekun dövlət attestasiyası buraxılış işlərinin və magistratura səviyyəsində magistrlik dissertasiyalarının müdafiəsi də onlayn formatda baş tutdu.

***Bakalavriat səviyyəsində Yekun dövlət attestasiyası buraxılış işinin müdafiəsi formasında nəzərdə tutulmuş 487 tələbə onlayn rejimində buraxılış işini müdafiə etdi.

***İmtahanlar "Microsoft Teams" platforması üzərindən təşkil edildi, videoyazı formasında arxivdə saxlanıldı.

***Tələbəyönümlü qərarların nəticəsi olaraq yaradılan BDU Tələbə Nəzarət Qrupu sayəsində fəal tələbələr birlikdə səmərəli fəaliyyət göstərdi. Nəticədə imtahanların gedişi və təhsil alanların imtahan prosesində iştirakına nəzarətin həyata keçirilməsinə əlverişli zəmin yarandı. Tələbə Nəzarət Qrupu imtahan prosesinə tələbələrin daha aktiv qoşulmasına müsbət təsir göstərməklə yanaşı Universitetdə fəaliyyət göstərən tələbə təşkilatlarını öz ətrafında birləşdirdi.

***Tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflıq və obyektivlik tam şəkildə təmin edildi, imtahanların gedişi Universitetin rektoru, prorektorlar, dekanlar, kafedra müdirləri, Tələbə Nəzarət Qrupu tərəfindən izləndi.

***BDU-nun Psixoloji Yardım Sektoru onlayn imtahan sessiyası dövründə ehtiyacı olan tələbələrə psixoloji dəstək göstərərək, mütəxəssis məsləhətləri verdi.

***Tələbə müraciətlərinin operativ araşdırılması, imtahan nəticələrinin yenidən yoxlanılması və qiymətləndirilməsi məqsədilə universitetin Apellyasiya Komissiyası virtual fəaliyyət göstərdi. Sessiya müddətində Qəaragahın qaynar xəttinə 153 müraciət daxil oldu. Onların əksəriyyəti obyektiv və tələbələrin xeyrinə həll edildi.

***Tələbələr pandemiya dövründə imtahanların yüksək səviyyədə təşkil olunması və imtahanlarla bağlı edilən müvafiq güzəştlərə görə BDU rəhbərliyinə və professor-müəllim heyətinə öz minnətdarlıqlarını bildiriblər.

# BDU ekstremal şəraitdə daha bir uğura imza atdı

***Bakı Dövlət Universiteti elmin və təhsilin vahid müstəvidə fəaliyyətini və inkişafını həmişə təmin edən bir məkandır. Pandemiya dövrü universitetin bu fəaliyyət sisteminə nə qədər əngəllər yaratsa da, rəhbərlik çətin situasiyaya təslim olmadı.***

Əlbəttə, ilk növbədə distant təhsil prosesinə maksimum diqqət ayrıldı, sonra distant imtahan formatının tədbirlər planı hazırlandı və Bakı Dövlət Universiteti zamanın yaratdığı bu sınaqdan da üzüağ çıxdı. Bütövlükdə universitet tələbələrinin həm onlayn dərs prosesindən, həm də imtahanlardan razı qalmaları bir daha onu göstərdi ki, universitetin ekstremal şəraitdə fəaliyyəti uğurlu nəticələrə gəlməyə imkan verdi.

Maraqlı və bacarıqlı yanaşma bir də onu göstərdi ki, universitet rəhbərliyi fakültələrin, ayrı-ayrı əməkdaşların elmi yaradıcılığına da xüsusi diqqət ayırdı və bunun nəticəsi olaraq kollektivin elmi yaradıcılıq potensialı da geniş şəkildə özünü reallaşdırmasından geri qalmadı. Bu çətin sınaq dövründə universitetimiz elmi potensialın gerçəkləşməsi prosesini də onlayn formatında həyata keçirməyi bacardı. Elmi yaradıcılığa diqqət faktorları sırasında BDU fakültələrinin onlayn elmi konfransları diqqət çəkdi. İstisnasız olaraq universitetin bütün fakültələri təxminən bir ay müddətində elmi konfranslar təşkil etdilər. Bu konfranslarda təkcə həmin fakültələrin müəllim və qabaqcıl tələbələri deyil, həm də hər bir fakültənin elmi yaradıcılıqla bağlı olan və respublikamızın müxtəlif elmi, mədəni, iqtisadi və politoloji və s. qurumlarda çalışan görkəmli məzunları, ictimai rəydə tanınan alimləri də iştirak etdilər. Onlar qoyulan problemlər ətrafında ciddi müzakirə, polemika formatında sabahın inkişafına təkan verəcək elmi-praktik yenilikləri ortaya qoydular.

***Aydındır ki, "koronavirus tətilləri" çoxdan başlamış olsa da, Bakı Dövlət Universiteti bu "tətillərə" təslim olmadı. İndi ali təhsil sistemində rəsmi dövlət məzuniyyəti başlayır. Görünən odur ki, universitetimiz bu rəsmi "tətil" günlərində də öz işini dayandırmır. Universitet rəhbərliyinin və əməkdaşlarının yüksək vətəndaşlıq ləyaqəti hər kəsi məzuniyyət dövründə də, yəni bu günkü sınaq çağında iş başına dəvət edir.***

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi əslində dünyanın adi çağlarında da məzuniyyəti formal hesab edir. Jurnalistlərimiz gecə-gündüz demədən iş başındadırlarsa, fakültəmizin müəllimləri və hətta cəsarətlə deyərdim ki, tələbələri də beləcə gecəgündüz demədən iş başındadırlar. İyulun 17-də Jurnalistika fakültəsi sözün həqiqi mənasında çox möhtəşəm bir konfransa start verdi. Bu konfransda təkcə fakültənin müəllim və tələbələri deyil, habelə ölkə mətbuatının, KİV sisteminin peşəkar jurnalistləri də iştirak edirdilər. Həmin peşəkar media nümayəndələri sırasında fakültəmizə həmişə dəstək olan, zaman-zaman tələbələrimizə praktikanı tədris edən görkəmli jurnalistlər - "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Şərq" qəzetinin baş redaktoru, mətbuat tarixinin görkəmli tədqiqatçısı Akif Aşırlı, Türkiyə Anadolu Ajansının Bakı təmsilçisi Tolqa Özgenc, Azərbaycan media mühitində xüsusi çəkisi olan "Modern.az" saytının rəhbəri Elşad Eyvazlı, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, Rusiyanın Xalqlar Dostluğu Universitetinin müəllimi Anar Həsənov kimi media nümayəndələrinin adlarını çəkmək olar. *Üstəgəl, fakültənin bütün əməkdaşları və BDU rəhbərliyinin iştirak etdiyi konfrans pandemiya dövründə, ümumiyyətlə, ekstremal şəraitdə medianın fəaliyyət proqramını müəyyən edirdi. Konfransa BDU-nun prorektoru Əliş Ağamirzəyev moderatorluq edirdi.* Universitetimizdə hər kəsin yüksək savad, yüksək təşkilatçılıq və yüksək mədəniyyət sahibi kimi tanıdığı Əliş müəllim həmin keyfiyyətləri bu məqamda da göstərdi.

***O, konfransı açmaq üçün ilk sözü Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevə verdi. Elçin müəllim Jurnalistika fakültəsi əməkdaşlarının görkəmli media nümayəndələri ilə birgə təşkil etdikləri bu konfransı çox uğurlu bir ideya kimi qiymətləndirdi.***

Elçin Babayev jurnalistikanın ictimai həyatda yeri və rolu barədə, dövlətçiliyimizin inkişafında, azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsində rolunu açıqladı. Rektor Azərbaycanda söz və mətbuat azadlığının Ümummilli liderimiz Heydər Əliyev konsepsiyasından bəhs etdi, Azərbaycan jurnalistlərinin klassik milli mətbuat ənənələrinə sadiqliyi barədə əyani faktlar üzərində dayandı, Prezident İlham Əliyevin jurnalistikamıza qayğı faktorlarını xatırlatdı və konfrans iştirakçılarına uğurlar arzuladı.

Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru Vüqar Əliyev məruzəsində pandemiya şəraitində medianın üzərinə düşən vəzifələrdən bəhs etdi və xüsusi olaraq Ermənistanın bu günlərdə Tovuz dövlət sərhəddində törətdiyi vəhşi təxribatlar kimi ekstremal bir məqamda medianın necə davranmalı olduğu ilə bağlı çox maraqlı təkliflər irəli sürdü. Vüqar Əliyevin praktik jurnalistlərə bu təklifləri bir daha sübut etdi ki, nəzəriyyənin praktika ilə birgə fəaliyyəti çox vacibdir və Jurnalistika fakültəsinin elmi-nəzəri fikirləri praktiklərlə həmişə yol yoldaşı olmalıdır.

"525-ci qəzet"in məruzəsində XXI əsrin yeni çağırışları, bu kontekstdə elektron və ənənəvi medianın vəzifələri kimi maraqlı məqamlar üzərində dayandı, fakültənin nəzdində "Məzun mərkəzi"nin yaradılması ideyasını irəli sürdü. Elçin Babayev dərhal bu ideyaya dəstək verdi və qeyd etdi ki, universitet rəhbərliyi və Jurnalistika fakültəsi lap yaxın gələcəkdə belə bir mərkəzin yaradılmasına nail olacaq. Rektor onu da xüsusi vurğuladı ki, fakültənin görkəmli, peşəkar məzunları ilə gənc jurnalistlərin, hətta tələbə-jurnalistlərin hadisələrə baxışlarını birləşdirmək üçün müştərək imzalar kimi bir təşəbbüsü də gerçəkləşdirmək olar.

…Üç saata yaxın davam edən konfrans öz işini başa vurdu. Konfrans iştirakçılarında belə bir təəssürat yarandı ki, onlayn formatında keçirilən bu tədbir canlı auditoriya tədbirindən heç də geri qalmadı. İnformasiya texnologiyasının müasir inkişafı hər cür ünsiyyətə şərait yaradır. Yetər ki, iş görməyə istək olsun və bir də istəklərin birgəlik faktı özünü göstərsin.

*Cahangir MƏMMƏDLİ,*
*Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor*

# BDU-nun müəllimləri təltif edildi

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri nümayəndələrinin təltif edilməsi haqqında sərəncam imzalayıb.**

**Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafında xidmətlərinə görə Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsinin dekanı Əliyev Vüqar Zifər oğlu "Əməkdar Jurnalist", Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının professoru Rüstəmov Akif Rüstəm oğlu və Milli mətbuat tarixi kafedrasının dosenti Mehdiyev Məhəmmədismayıl Əşrəf oğlu "Tərəqqi" medalı ilə təltif ediliblər.**

**Təbrik edir, uğurlar arzulayırıq!**

# Zaman bir olmaq zamanıdır



XXI əsrdə savaşlar yalnız isti təmas xəttində aparılmır. Media texnologiyalarının inkişafı, hazırda müharibənin başqa növünü - informasiya müharibəsini ən aktual məqam kimi ortaya qoymaqdadır. Çox zaman sosial media alətləri vasitəsilə aparılan bu savaş öz təsir gücü və əhatə dairəsinə görə geniş olur və təsadüfi deyil ki, artıq informasiya müharibəsi ilə bağlı yeni modellər öyrənilir və tətbiq edilir.

Bu gün ölkəmizə qarşı da ciddi informasiya müharibəsi aparılır. Bu müharibənin yalnız düşmən ölkə tərəfindən olmasını düşünmək, təbii ki, sadəlövhlük olardı. Azərbaycan hər ciddi gücün hədəfində olacaq qədər vacib, əhəmiyyətli ölkədir: həm geosiyasi mövqeyinə, həm də geoiqtisadi durumuna görə. Bura ölkəmizin artan və təsir dairəsini getdikcə genişləndirən siyasi nüfuzunu da əlavə etsək, o zaman mənzərə tam aydın olur. Əsasən düşmən ölkə, eləcə də bölgədə, ölkəmizdə marağı olan dövlətlərin xüsusi xidmət orqanlarının "süzgəcindən" keçmiş qüvvələrin vasitəsilə aparılan bu informasiya müharibəsinin konturları bir çox məqamlarda bizə bəllidir. Lakin bu, əsla o demək deyil ki, biz arxayın olmalı və ya bu məqamlara ciddi əhəmiyyət verməməliyik. Torpaqlarımız işğal olunub, biz müharibə vəziyyətindəyik. Sadəcə, bu həqiqət hər birimizə bəs etməlidir ki, daim ayıq, necə deyərlər tətikdə olaq.

İyulun 14-dən 15-nə keçən gecə xalqın öz dövləti, Ali Baş Komandanı və ordusu ilə həmrəylik nümayiş etdirməsinin ardından baş verən təxribatlar da bunu göstərdi ki, diqqətli olmaq lazımdır. Və maraqlı məqam: bu təxribatdan dərhal sonra görüntülərin düşmən ölkənin sosial media seqmentində təbliğatına start verilməsi, insanlarımızın həmrəylik və orduya sevgi nümayişinin müharibə əleyhinə mitinq kimi təbliğ edilməsi, hətta vətəndaşların kütləvi şəkildə ayağa qalxaraq dövlət strukturlarını zorla ələ keçirməsi kimi təqdimatı sıradan bir hal deyil.

3 gündə Tovuz bölgəsində düşmənin isti təmas xəttində təxribatlara yol açmasına paralel olaraq, informasiya cəbhəsində də maraqlı və ciddi proseslərə start verildi. 2016-cı ilin aprelindən fərqli olaraq, bu dəfə ermənilər daha fərqli şəkildə informasiya məkanımıza müdaxilə etməyə çalışırlar.

Əgər 2014-cü ilin avqust və 2016-cı ilin aprelində daha çox informasiya portallarından istifadə etməklə "dairə" ("bolvanka") modeli tətbiq edilirdisə, indi sosial mediada dilimizdə sərbəst şəkildə fikirlərini yazı ilə ifadə edən, azərbaycanlı kimi qeydiyyatdan keçmiş xüsusi olaraq hazırlanmış qruplardan istifadə edilir və nəticədə məşhur "niquş" şayiə texnologiyası dövrəyə girir.

Unutmaq olmaz ki, düşmən tərəfindən məxsusi olaraq yaradılan profillərdən müxtəlif məzmunlu və həqiqətlə əsla əlaqəsi olmayan dezinformasiyalar və şəkillər yayaraq, cəmiyyətdə ümidsizlik yaratmağa, insanlarımızın dövlətimizə, orduSuna olan inamını sarsıtmağa çalışırlar. Son üç gündə erməni tərəfinin dəfələrlə bu cür dezinformasiyalar və çəkiliş tarixi keçmişə dayanan şəkilləri son əməliyyatların görüntüləri kimi yaymağa cəhd göstərdiklərinin şahidi olduq.

Bundan əvvəlki döyüş əməliyyatları zamanı olduğu kimi, bu dəfə də məsuliyyətsiz paylaşımlara şahidlik etdik. Hətta düşmənin sosial media vasitəsilə dövriyyəyə buraxdığı dezinformasiyaları yayanlar, bu dezinformasiyaların ətrafında müzakirələr açmaqla onu faktiki olaraq leqallaşdıranlar oldu.

***Təəssüf ki, onlara inananlar, belə demək mümkünsə, "küyə gedənlər" də olur. Bu səbəbdən sosial mediada paylaşılanlara diqqət etmək, xüsusilə önəmlidir. Müharibə yalnız ön cəbhədə deyil, informasiya ilə də aparılır. İkinci isə birincidən daha təhlükəli və miqyasına görə genişdir. Döyüşlərin getdiyi zamanlarda daha həssas, daha məsuliyyətli olmaq lazımdır. Bizim hər birimizin bir azərbaycanlı olaraq üzərimizə vəzifə düşür. Bu vəzifə bizim vətənimiz qarşısında borcumuzdan qaynaqlanır.***

İnformasiya müharibəsində qalib, ön cəbhədəki əsgərlərimizə dəstək üçün yalnız rəsmi qaynaqlardan alınan xəbərlərə inanmalı və paylaşmalıyıq. Müharibə ilə bağlı rəsmi xəbərlərin qaynağı isə Müdafiə Nazirliyidir. Mənşəyi şübhə doğuran profil və səhifələrdə yayılanlara əsla etibar etməməli, paylaşmamalı, həmin səhifələri şikayət etməliyik. Heç bir halda cəbhə xəttindən çəkilmiş və vizual olaraq hərbi texnika və əsgər mövqelərini zərrə qədər də olsa, nişan verəcək vizual görüntüləri yaymamalıyıq. Çəkən və paylaşanlardan bu görüntüləri dərhal silmələrini tələb etməliyik. Sosial mediada hər hansı fikir bildirərkən cəmiyyətimiz qarşısında daşıdığımız sosial məsuliyyətimizi nəzərə almalıyıq.

Unutmayaq ki, biz arxa cəbhəyik! Arxa cəbhədə olan düzən (!) bizim öndə düşmənlə üz-üzə dayanaraq qanı və canı bahasına savaşan əsgərimizə də öz təsirini göstərir. Zaman dövlətimiz, Ali Baş Komandanımız və ordumuzun ətrafında sıx birləşmək zamanıdır.

Biz birlikdə güclüyük!.

*Vüqar Əliyev,*
*Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru*

# "Təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir"

**Ötən illər ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yürüdülən sosial-iqtisadi siyasət nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, makroiqtisadi sabitlik qorunub saxlanılmış, regionların inkişafı sürətləndirilmiş, əhalinin rifah halı xeyli yaxşılaşdırılmışdır. 1991-1992-ci illərdə ölkədə yaranmış idarəolunmaz vəziyyət, Azərbaycanın dərin böhrana düçar olması, ölkəni xaos, anarxiya, özbaşınalığın bürüməsi məhz xalq-iqtidar birliyinin təmin olunmamasının nəticəsi idi. Yalnız görkəmli lider Heydər Əliyev xalq-iqtidar birliyini təmin edə bilmişdir.**

Bundan sonra isə 2003-cü ildə cənab prezident İlham Əliyevin hakimiyyətə gəlməsindən sonra xalq-iqtidar birliyi kifayət qədər möhkəmlənmişdir. Cənab Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, hər bir vətəndaşa tolerant, səmimi, bərabər davranışı xalqda inam yaratmış və bütün bunlar ölkə başçısının azərbaycançılıq ideologiyasına sadiqliyindən xəbər vermişdir. Maddi rifah halı daim yüksələn xətt üzrə inkişaf edən Azərbaycan insanı öz hüquqlarını reallaşdırmaqda, sərbəst seçimini etməkdə, söz və fikir azadlığından faydalanmaqda hər hansı problem yaşamır. Belə vəziyyət isə təbii olaraq hakimiyyət və xalq arasında yaşanan birliyi daha da möhkəmləndirir, onu hər hansı qüvvənin istənilən formada cəhdində belə sarsılmayacaq özüllər üzərində qurur. Çünki xalq öz iradəsi ilə formalaşdırdığı hakimiyyətin yalnız ona xidmət etdiyini, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu hər keçən gün daha da möhkəmləndirdiyini, dünyanın hətta ən aparıcı ölkələrinin hesablaşdığı dövlət olduğunu aydın görür.

Ölkəmizin təhsil sahəsindəki göstəriciləri dünyanın bir sıra inkişaf etmiş ölkələrinin göstəricilərindən də yüksək olub. Ötən il, Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş mərasimdə çıxış edən cənab İlham Əliyev təhsilin ən incə məqamlarını qeyd edərək, universitetin biz gəncləri necə maarifləndirməsi haqda geniş məlumat vermişdir. Təhsilin önəmini qeyd etməklə yanaşı, həm də öz atası - Ulu öndər Heydər Əliyevin də bu ilk ali təhsil ocağında təhsil aldığını qeyd edərək bütün tələbələrə müvəffəqiyyətlər arzu etmişdir. Cənab prezidentin tələbələrin təqaüdlərinin artırılması ilə bağlı imzaladığı sərəncam da biz tələbə gənclərin daim diqqət mərkəzində olduğumuzun əyani sübutudur. Qeyd edim ki, təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı var. İyulun 13-də Tovuz istiqamətində Ermənistanın təxribat yaratması hər kəsə məlum idi. Bu cinayətdən sonra Azərbaycan prezidenti tərəfindən Ermənistana qarşı cəza əməliyyatının başlanmasına dair göstəriş verilib. Son günlər Tovuz rayonunda baş verən düşmən təxribatları nəticəsində xalqımızın necə birlik olduğunun, hər zaman Prezidentimizə dəstək olduğunun və onun verdiyi qərarların xalq tərəfindən necə dəstəkləndiyinin canlı şahidi olduq. Biz müasir Azərbaycan gəncləri olaraq informasiya müharibəsində yetəri qədər öz səsimizi dünyada duyurmağa davam edirik. Ulu öndər Heydər Əliyev ölkəmizi, xalqımızı fəlakətdən necə xilas etmişdisə, möhtərəm Prezidentimiz İlham Əliyev də bu gün Azərbaycanı böyük bəlalardan qoruyur. Son vaxtlar yaşanan hadisələr bunu bir daha sübut edir. Qeyd edilənlər bir daha göstərir ki, Azərbaycanda ölkə rəhbərliyinə xalqın etimadı yüksəkdir və bu etimad daim yüksələn xətt üzrə inkişaf edir. Məhz bu amil də Azərbaycanın daha güclü, sürətlə inkişaf etməkdə olan sabit bir dövlətə çevrilməsində mühüm rol oynayan əsas məqamlardan biridir.



***Samirə Novruzova,***
***tələbə***

# Universitetdə bu il səkkiz yeni ixtisas açılıb

*BDU-da tədrisin yenilənməsi və müasir standartlara uyğun qurulması, dövrün tələblərinə uyğun kadrların hazırlanması istiqamətində aparılan fəaliyyətin tərkib hissəsi olaraq, 2020/2021-ci tədris ili üçün bakalavr və magistr səviyyələri üzrə yeni ixtisas və ixtisaslaşmalar açılıb.*

**Bakalavr pilləsində:**

Biotexnologiya;
Su bioehtiyatları və akvakultura;
Turizm işinin təşkili;
Geomatika və geodeziya mühəndisliyi;
Yerquruluşu və daşınmaz əmlakın kadastrı;
Kitabxanaçılıq və informasiya fəaliyyəti;
Beynəlxalq ticarət və logistika ixtisasları.

**Magistratura pilləsində:**

Ölkəşünaslıq (Rusiya üzrə) ixtisaslaşması

Yeni ixtisasların yaradılması həm də əmək bazarında bu ixtisaslara olan tələbatın ödənilməsi zərurətindən yaranıb.

# Daha bir uğur



***Hüquq fakültəsinin məzunu Araz Poladov ABŞ-ın nüfuzlu Harvard Hüquq Məktəbini əla qiymətlərlə bitirərək, ikinci LL.M. dərəcəsi alıb.***

ABŞ-ın davamlı fəaliyyət göstərən ən qədim hüquq məktəbi olan Harvard Hüquq Məktəbi Harvard Universitetinin bir hissəsidir. Dünya Hesabatı tərəfindən ABŞ-ın hüquqşünaslıq məktəbləri- nin ilk beşliyində sıralanır.

Araz Poladov 2012-ci ildə tələbə qəbulu üzrə dövlət imtahanından 669 bal toplayaraq Bakı Dövlət Universitetinin (BDU) Hüquq fakültəsinə daxil olub. 2016-cı ildə fakültəni fərqlənmə diplomu ilə məzun olduqdan sonra təhsilini Avstriyanın Vyana Universitetində Avropa və beynəlxalq biznes hüququ ixtisası üzrə davam etdirib. 2017-ci ildə Vyana Universitetini də fərqlənmə diplomu ilə bitirərək hüquq üzrə magistr (LL.M.) dərəcəsinə yiyələnib. Avstriyada təhsilini başa vurduqdan sonra Azərbaycana geri dönüb və Baker McKenzie beynəlxalq hüquq şirkətində hüquqşünas kimi fəaliyyət göstərib. Eyni zamanda, BDU-nun Hüquq fakültəsində beynəlxalq hüquq və insan hüquqları fənlərini saathesabı əsaslarla ingilis dilində tədris edib. 2018-ci ilin mart ayında İnsan hüquqları və informasiya hüququ üzrə YUNESKO kafedrasına fəlsəfə doktoru proqramı üzrə büdcə hesabına əyani doktoranturaya qəbul olunub.

Araz Poladov hazırda Bakı Dövlət Universitetində doktoranturada təhsilini davam etdirir.

REKTORLARIMIZ...

# Tanrının sevdiyi, seçdiyi xoşbəxt insan

"Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələrini" yaşadan, inkişaf etdirən BDU-nun keçdiyi keşməkeşli yola nəzər salarkən bəlli olur ki, 1929-cu ilin əvvəllərindən 1950-ci ilin ortalarına kimi olan dövr daha çox "sərt rejim"in nəzarəti altında keçib. Düzdür, bu illər ərzində BDU dörd il fəaliyyətini dondurmağa məcbur olub. Xüsusən 1930-1940-cı illər ərzində az qala hər saat, hər gün BDU divarları arasında "xalq düşmən"ləri peyda olub.

Məhz həmin illər Əziz Əliyev, yəni 1927-ci ildə Bakı Dövlət Universitetinin tibb fakültəsini bitirir. Onun təhsilə olan marağı müəllimlərinin də diqqətindən yayınmır. Onu universitetin "daxili xəstəliklər" kafedrasında işə götürürlər. Ə.Əliyev BDU-da təhsil aldığı illərdə həm də Azərbaycan SSR Xalq Komissarları Sovetində katib köməkçisi, şöbə müdiri və s. işlərdə çalışıb. 1929-cu ildə namizədlik dissertasiyasını müdafiə edən gənc ölkədə tibbin inkişafına da dəstək olub. O, 1928-1930-cu illərdə Xalq Səhiyyə Komissarlığında şöbə müdiri və Klinik İnstitutun direktoru kimi məsul vəzifələri icra edib.

Əziz müəllim 1937-ci ilin yanvarından iyunun sonuna kimi BDU-nun rektoru olub. Çox çətin repressiyaların ölkəmizdə tüğyan etdiyi bir zamanda, ölkənin bütün təhsil ocaqlarının işi "siyasi tərbiyə"yə yönəldiyi il. Xoşbəxtlikdən onların arzusunu gözündə qoyanlardan biri də Əziz müəllim oldu. "Əziz müəllim universitetdə



*Əziz Əliyev*

zaman etibarı ilə az fəaliyyət göstərsə də, rəhbərlik etdiyi dövrdə universitet ziyalılarının bir hissəsini amansız repressiyalardan qoruya bilmişdi".

1939-cu ildə uğurla doktorluq dissertasiyası müdafiə edən görkəmli alim Ə.Əliyev həm də ictimai-siyasi xadim idi. İşğüzarlığı, yüksək idarəetmə mədəniyyəti, xoş ünsiyyətcilliyi ilə insanların rəğbətini qazanan Ə.Əliyev 1949-cu ildə Moskvaya dəvət edilir və "1949-1950-ci illərdə Moskvada ÜİK (b) P MK-nın inspektoru işləyir. Sonrakı illərdə yenidən Vətənə qayıdan Əziz müəllim müxtəlif illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin deputatı olan Əziz müəllim "iki dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni" ilə təltif edilib.

Təbiətən çox mülayim, mehriban, xoşxasiyyət olan Əziz müəllimə Tanrı xoşbəxt ailə də bəxş edib. 1920-ci ildə Hacı Cabbar Abbasovun qızı Leyla xanımla ailə həyatı qurub. Həmişə yüksək vəzifələrdə olmasına baxmayaraq, ailə qayğılarına hər an vaxt tapan, diqqət yetirən Əziz müəllim üçün ailə qayğıları iş-güc qayğılarından hər an öndə durub. İki oğul, iki qız atası olan Əziz müəllim övladlarını da özü kimi xalqına, vətəninə, layiq vətəndaş kimi böyüdüb. Ailənin ilki olan Tamerlan respublikanın baş terapevti, tibb elmləri doktoru, uzun müddət Tibb Universitetində daxili xəstəliklər kafedrasına rəhbərlik edib, qızı Zərifə xanım da (Ümummilli liderimiz Heydər Əliyevin ömür-gün yoldaşı) atasının yolunu davam etdirib. Nəinki Azərbaycan tibbində, hətta dünya tibb sahəsində görkəmli alim olan Zərifə xanım oftalmologiya sahəsində böyük uğurlara imza atıb. Gülarə xanım isə musiqi sahəsində ürəklərə məlhəm olub. ("Dan ulduzu" instrumental ansamblının rəhbəri idi). Ailənin son beşiyi olan Cəmil müəllim də atasının yolunu seçib. Ömrünü-gününü tibb sahəsinə bağlayan dünya şöhrətli alim Cəmil müəllim hazırda respublika Milli Onkologiya Mərkəzinin direktoru və AMEA-nın akademikidir.

***Qərənfil Dünyaminqızı,***
*Milli mətbuat tarixi kafedrası, dosent*

# Faydalı dərs vəsaiti

***BDU "Dünya iqtisadiyyatı" kafedrasının dosenti Ümhəbibə Qələndərovanın həmmüəllifliyi ilə 42.5 çap vərəqində dərs vəsaiti nəşr edilmişdir. Bu dərs vəsaiti "Ölkəşünaslığın əsasları" adlanır. Dərs vəsaiti BDU-nun yaradılmasının 100 illiyinə həsr edilib. Çox ibrətamiz haldır ki, bu sözlər kitabın üz qabığında yazılıb.***

Ü.Qələndərova etiraf edir ki, "Dünya iqtsadiyyatı", "Beynəlxalq iqtisadi münasibətlər " və "Beynəlxalq iqtisadi təşkilatlar "kimi fənlərin tədrisində ayrı-ayrı milli dövlətlərdən ibarətdir. Odur ki, dünya dövlətləri barədə müəyyən vəsaitin əldə olmasına çox ehtiyac var. Bu dərs vəsaitində 160 ölkə təsnif edilib. Dərs vəsaiti 5 bölmədən ibarətdir: Avropadan-42; Asiyadan-45; Amerikadan-30; Avstraliyadan-3; Afrikadan-40 ölkə araşdırılıb. 25 fəsildən ibarət olan bu dərs vəsaitində regionçuluq prinsipi də nəzərə alınıb. Bu 160 dövlət əhalinin sayına, ərazisinə, ÜDM-in həcminə və bir çox digər makroiqtisadi göstəricilərə görə cəmi dünya dövlətlərinin 97, 98 faizini təşkil edirlər. Bu mənada nisbətən kiçik dövlət ərazilərin dərs vəsaitinə daxil edilməsinə o qədər də zərurət qalmamışdır.

Dərs vəsaitinə daxil edilən dövlətlərin araşdırılmasında onların coğrafi vəziyyəti, siyasi sistemi, inkişaf tarixi və nəhayət iqtisadi inkişaf səviyyəsi hərtərəfli, anlaşıqlı şəkildə təhlil edilir. Demək olar ki,




hər bir dövlət haqqında tam təsəvvür yaradılır. İstər elmi-nəzəri baxımdan və istərsə də tarixi-məntiqi baxımdan yüksək metodoloji üslubun olması özünü göstərir. Hər bir dövlətin araşdırılmasında onların inkişaf istiqamətləri, beynəlxalq əlaqələri, müstəqillik uğrunda mübarizələrinin xarakteri tədqiq edilir.

Belə bir böyük həcmdə olan dərs vəsaiti, demək olar ki, çox ensiklopedik bir məlumat mənbəyidir. Hər bölmənin sonunda statistik göstəricilərdən ibarət yekun cədvəlləri verilib. Bir çox məhsul növləri üzrə qabaqcıl dövlətlər barədə olan məlumatlar ayrıca göstərilir.

Dərs vəsaiti çox sadə dildə anlaşıqlı üslubda yazılıb, oxunaqlı, maraqlı və təqdirəlayiqdir.

*Dərs vəsaiti çox nəfis şəkildə cildlənib. Tələbələrimizə məsləhət görərdik ki, bu dərs vəsaitini oxusunlar, ayrı-ayrı dövlətlər barədə olan biliklərini zənginləşdirsinlər.*

***Aynur Qurbanqızı,***
***"Bakı Universiteti" nəşriyyatının kompüter tərtibatçısı***

# BDU-nun tələbələri “Çin dili körpüsü” müsabiqəsinin qalibi olublar

***Şərqşünaslıq fakültəsinin tələbələri “Çin dili körpüsü” beynəlxalq müsabiqəsinin Azərbaycan üzrə final mərhələsinin qalibi olublar.*** BDU-nun Konfutsi İnstitutu və Çin Xalq Respublikasının (ÇXR) Azərbaycandakı Səfirliyinin dəstəyi ilə onlayn formada baş tutan müsabiqədə ölkənin müxtəlif ali təhsil müəssisələrinin tələbələri iştirak edib.

Müsabiqədə Şərqşünaslıq fakültəsinin “Regionşünaslıq” (Çin üzrə) ixtisasının üçüncü kurs tələbəsi Minara Tyutyunik



(91.12) birinci, dördüncü kurs tələbəsi Aygün Ağayeva üçüncü yerə, “Dilşünaslıq” (Çin dili) üzrə I kurs magistrantı Səadət Quluzadə isə fərqlənmə sertifikatına layiq görülüblər.

***Yarış ənənəvi olaraq üç mərhələdə təşkil olunub.*** İştirakçılar nitq qabiliyyəti (60 bal), sual-cavab (20 bal), istedad qiymətləndirilməsi (20 bal) mərhələləri üzrə öz güclərini sınayıblar. Müsabiqənin şərtlərinə əsasən, qalib Çində keçiriləcək XIX Ümumdünya “Çin dili körpüsü” müsabiqəsində ölkəmizi təmsil edəcək.

“Çin dili körpüsü” müsabiqəsinin əsas məqsədi tələbələrə çin dilində bilik və bacarıqlarının nümayiş etdirilməsi üçün şərait yaratmaq, onlarda çin dilinə maraq və sevgini artırmaq, həmçinin çin dili və mədəniyyəti anlayışına imkan yaratmaqdır. Müsabiqəyə hər il 70-dən çox ölkədən tələbələr qatılır.

# Tələbələrimizin onlayn “müdafiə”si

## BDU-nun əlaçı məzunları: “Buraxılış işi müdafiəsini könüllü olaraq seçdik”

***Dünyanı lərzəyə salan koronavirus (Covid-19) pandemiyasının dünyada təsirsiz ötüşdüyü sahə demək olar ki, qalmayıb, infeksiya qlobal həyatın bütün sferalarında ciddi problemlər törətməkdə davam edir. Ölkəmizdə bu problemin cilovlanması, mənfi təsirlərinin neytrallaşdırılması üçün qətiyyətli tədbirlər reallaşdırıldı. Nəticədə Bakı Dövlət Universiteti (BDU) bu çətin günlərdə tədris prosesini onlayn formata keçirməklə, ikinci semestrin imtahan sessiyası və buraxılış işlərinin müdafiəsinin bu sistem vasitəsilə uğurla təşkilini təmin edə bildi.***

***Və budur: BDU-nun buraxılış işi müdafiə edən sonuncu kurs tələbələri Universitet qarşısında son öhdəliklərini də uğurla başa vururlar.***

***Universitetin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsi imtahanların gedişi, tələbələrin yeni vəziyyətə adaptasiyası, buraxılış işlərinin onlayn müdafiəsi barədə mütəmadi olaraq professor-müəllim heyəti və tələbələrin fikirlərini ictimaiyyətə təqdim edir.***

***Ali məktəbin son kurs tələbələrinin tədqiqat işlərinin yazılması, müdafiəyə hazırlıq və müdafiə prosesinin gedişi ilə bağlı fikirlərini təqdim edirik:***

**Jurnalistika fakültəsinin fəal tələbələrindən Zeynəb Mirzəyeva da bu il məzun olan tələbələrdəndir:** “Dörd il bundan əvvəl həyatımda böyük uğurlardan birinə imza ataraq tələbə adını qazandım. Bu gün isə böyük bir iftixarla BDU-nun Jurnalistika fakültəsinin məzunu oluram. İmtahan həyəcanı, yuxusuz gecələr, sessiya stresi, gənclik həyatının ən şirin dönəmi olan tələbəlik illərinin sevinc və kədərli, bəzən qayğılı, ömrün təkrarolunmaz anları artıq geridə qalır. Həyatımın unudulmaz möhtəşəm bir mərhələsini geridə qoyaraq müstəqil, eyni zamanda məsuliyyətli dövrünə qədəm qoyuram.”



*Zeynəb pandemiya dövründə yazdığı buraxılış işindən də danışdı:* “Azərbaycanda bu ilin martından xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar olaraq təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin, eləcə də kitabxanaların fəaliyyətinin dayandırılmasına səbəb oldu. Sözsüz, belə vəziyyət buraxılış işi hazırlayan sonuncu kurs tələbələri üçün də bir sıra yeniliklər yaratdı. Elmi işimin hazırlanmasında yerli və xarici kitabxanaların elektron kataloqlarından dərsliklər, qəzet və elmi jurnalların veb-səhifələrində dərc olunmuş məqalələrdən istifadə etdim. Ən əsası isə elmi rəhbərlərimlə mövzunun plan və fəsillərin tərtibatı üçün müzakirə imkanımız tədqiqatımı uğurlu tamamlamağa kömək etdi. Bu səbəbdən işi hazırlayaraq elektron formada elmi rəhbərimə göndərdim və onun ümumi rəyi, təklif və iradları əsasında düzəlişlərimi etdim. Nəticədə müdafiəmi uğurla başa vura bildim. Təbii ki, universitet rəhbərliyinin biz tələbələri düşünərək verdiyi qərar və güzəştlər də köməyimizə çatdı. Belə bir şəraitdə müəllimlərimizin bizə psixoloji dəstəyi də danılmazdır.”



**Şərqşünaslıq fakültəsinin sonuncu kurs tələbəsi Toğrul Qiyaslı isə diplom işinin uğurlu müdafiəsindən danışdı:** “Təhsil aldığım Şərqşünaslıq fakültəsinin Tərcümə ərəb dili ixtisasında qrupumuzdan altı nəfər diplom işinin müdafiəsinə layiq görülmüşdü. Mən də bu seçilən altı tələbə içərisində ən yüksək ortalama ilə yer alırdım. Diplom müdafiəsini seçməyimin əsas səbəbi daha çox çalışmaq, elmə olan həvəsim, onlayn tədris sisteminin uğurlu təşkili oldu. Bundan başqa, əlbəttə ki, müəllimlərin və Universitet kollektivinin dəstəyi də çox mühüm rol oynadı. Hesab edirəm ki, Bakı Dövlət Universiteti həqiqətən, respublikanın, eləcə də Şərqin ilk ali təhsil ocağı, ən nüfuzlu universitetidir. Doğma BDU-da tədrisin keyfiyyəti, aparılan uğurlu islahatları görmək və bir tələbə kimi bundan faydalanmaq 4 illik təhsil həyatımda prioritet məqsədim olub. İmtahan nəticələri hər zaman müvəffəqiyyəti olan bir tələbə kimi buraxılış işini hazırlayaraq təhsil aldığım ixtisas üzrə elmi-tədqiqat müstəvisində daha geniş elmi biliklər əldə etdim. Müdafiə prosesində yüksək nəticə qazanacağıma inanıram. Hədəfim yüksəkixtisaslı, peşəkar mütəxəssis olmaq, ölkəmiz üçün faydalı işlər görə bilməkdir.”

### "Müəllimlərimiz olmasaydı biz də olmazdıq"



**Tarix fakültəsinin son kurs tələbəsi Lalə Əsgərova diplom işini seçən könüllü tələbələrdəndir.** O, tələbə olduğu ilk ildən imtahanlara hazırlaşdığı vaxtlarda da hədəfinin BDU-nu əla qiymətlərlə bitirmək olduğunu açıqlayıb: “Düşünürəm elə yaxşı ki gələcəyə gedən yolda özümə bələdçi kimi Bakı Dövlət Universitetini seçdim. BDU-nun inkişafını, aparılan uğurlu islahatları, tədris prosesinin yeni standartlara uyğunlaşdırılması tendensiyasını yaxından izləyirəm. Diplom işini seçməyimin səbəbinə gəlincə, 100 illik tarixə malik olan ali təhsil müəssisəsində buraxılış işi yazmaq, elmi-tədqiqat, araşdırma ilə məşğul olmaqla aldığım biliklərin daha da dərinləşəcəyini düşünürəm. Təhsil aldığım müddətdə arzum əlaçı tələbə olmaqla kifayətlənməyib, eyni zamanda BDU kimi böyük təhsil məbədində ilk elmi addımlar atmaq olub. Hədəfim uğrunda rəqabətin güclü olduğunu bilirəm, müdafiə prosesində də ən yüksək nəticəni göstərəcəyimə inanıram”.




**Mexanika-riyaziyyat fakültəsinin IV kurs - SABAH qruplarının tələbəsi Mədinə Babayeva:** “Ağır pandemiya şəraiti olmasına baxmayaraq, təhsil aldığım qrupun 37%-nin diplom müdafiəsini seçməyini təqdirəlayiq hal hesab edirəm. Belə ki, təqdim edilən bir sıra güzəştlərdən, yəni ümumi orta müvəffəqiyyət göstəricisindən yararlana bilərdim. Elmi rəhbərimlə daim onlayn əlaqə saxlayır, yaranan problemləri aradan qaldırmağa çalışırdıq. Mövcud şəraitlə əlaqədar materialın mənbələrdən toplanması, ədəbiyyatın hazırlanması, düsturların tamamlanması nə qədər çətin olsa da, bunun öhdəsindən müvəffəqiyyətlə gələcəyimə inanırdım. *Müdafiə zamanı fakültə dekanımız professor Nizaməddin İsgəndərovun “Siz əsl qəhrəmanlarsız ki, belə bir şəraitdə diplom müdafiəsi seçmisiniz” deməsi məni bir daha əmin etdi ki, ÜOMG göstəricimdən daha yüksək hədəf seçməyim mütləq doğru addım və qürurverici hissdir.* Nəticədə diplom müdafiəsində maksimal balla qiymətləndirildim. Başda universitet rəhbərliyi və müəllimlərimiz olmaqla əməyi keçən hər kəsə minnətdarlığımı bildirirəm. Onlar olmasaydı biz də olmazdıq.”

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Həmid Vəliyev
Allahverdi Məmmədli
Nəsir Əhmədli

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 28.07.2020
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.